


Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır

Qəzet 1921-ci ildən çıxır

# ŞƏRQ qapısı

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 171 (21.072)

9 sentyabr 2014-cü il, çərşənbə axşamı

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## Naxçıvan şəhərinin quruculuq mənzərəsində yeni yaşayış binaları ilə bərabər, rahat yollar da göz oxşayır





*Naxçıvan Muxtar Respublikasının hərtərəfli inkişafı bütün sahələri əhatə edir. Həyata keçirilən tikinti-quruculuq tədbirləri isə bu inkişafın əsas hərəkətverici qüvvəsidir. Bu sahədə atılan uğurlu addımlar sakinlərin yaşayış səviyyələrinin yüksəldilməsi ilə yanaşı, Naxçıvan şəhərinin simasını da il-dən-ilə gözəlləşdirir. Xüsusilə əhalinin mənzil-məişət şəraitinin yaxşılaşdırılması sahəsində görülən işlərin nəticəsidir ki, son illər şəhərimizdə yeni yaşayış kompleksləri yaradılıb, çoxsaylı yaşayış binaları əsaslı təmir və yenidənqurma işlərindən sonra sakinlərin istifadəsinə verilib. Yeni tikilən yaşayış binalarının sırasına bir bina da qoşulub. Belə ki, Heydər Əliyev prospektində daha bir yaşayış binasının tikintisinə başlanılıb.*

Zirzəmi ilə birlikdə 8 mərtəbədən ibarət olacaq binanın tikintisi Naxçıvan Şəhər Abadlıq və Təmir-Tikinti İdarəsinin inşaatçıları tərəfindən aparılır. İş icraçısı Zamin Şükürovun verdiyi məlumata görə, yaşayış binasının ilk iki mərtəbəsində hörgü işləri yekunlaşıb, hazırda dördüncü və beşinci mərtəbələrdə beton-qəlib işləri görülür. Bina hər mərtəbəsində iki ikiotaqlı, iki üçotaqlı və bir birotaqlı olmaqla, ümumilikdə, 30 mənzildən ibarət olacaq, birinci mərtəbədə isə mağaza və xidmət obyektləri fəaliyyət göstərəcək.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2014-cü il 31 yanvar tarixli Sərəncamı ilə təsdiq edilmiş "2014-2015-ci illərdə Naxçıvan şəhərinin sosial-iqtisadi inkişafı üzrə Proqram" çərçivəsində həyata keçirilən tədbirlərin bir qismini də şəhərin yollarının abadlığı təşkil edir. Hazırda "Gəmiqaya Yol, Su, Enerji" Məhdud Məsuliyyətli Cəmiyyətinin inşaatçıları tərəfindən Əziz Əliyev küçəsindən Naxçıvan Şəhər Avtovağzal Kompleksi istiqamətində, eyni zamanda avtovağzal kompleksindən başlayaraq İslam Səfərli və Nizami küçələri boyunca uzanan avtomobil yollarının yenidən qurulmasına başlanılıb. Hələlik, 1 kilometr məsafədə aşınma işləri aparılır, torpaq sahəsi bərkidilir. İslam Səfərli küçəsində isə yol yatağı genişləndirilir. İşlər başa çatdıqdan sonra avtomobillərin və piyadaların rahat hərəkəti və təhlükəsizliyi yüksək səviyyədə təmin olunacaq.

Xatırladaq ki, bu yaxınlarda Naxçıvan şəhərinin "İstiqlal" küçəsində avtomobil yolu yenidən qurulub, yolun eni 13,88 metrdən 18,30 metrə, bəzi yerlərdə isə 23,98 metrədək genişləndirilib, yola 12 santimetr qalınlığında asfalt örtük salınıb.

Səbuhi HƏSƏNOV

## Şərur rayonunda yeni quruculuq ünvanları

*Şərur rayonundakı Kürkənddə kompleks quruculuq tədbirləri həyata keçirilir. Bu tədbirlərdən biri təhsilin səviyyəsini yüksəltmək üçün mövcud tam orta məktəb binasının yenidən qurulmasıdır. Qeyd edək ki, yeni təhsil ocağı kəndin gələcək perspektivi nəzərə alınaraq 216 şagird yerlik nəzərdə tutulub. Qısa müddət ərzində ikimərtəbəli köhnə məktəb binasında bəzi yardımçı tikililər sökülüb, əvvəlki bina daha bir mərtəbə ucaldılaraq üçmərtəbəli olub.*

Məktəb 11 sinif otağından, kimya, biologiya laboratoriyalarından, hərbi kabinədən, elektron lövhəli sinifdən, şahmat, kompüter otaqlarından, kitabxana və idman zalından ibarətdir.

Yeni obyektlərdən biri kənd mərkəzi üçün nəzərdə tutulub. İkimərtəbəli kənd mərkəzində inzibati ərazi dairəsi üçün nümayəndəlik, bələdiyyə, Yeni Azərbaycan Partiyası ərazi ilk təşkilatı, poçt, ATS, klub, kitabxana, iclas zalı yerləşəcək. Yeni ucaldılan kənd mərkəzinin binasında feldşer-mama məntəqəsi üçün də 3 otaq ayrılıb. Obyektdə son tamamlama işləri görülür.

Birmərtəbəli, yaraşıqlı xidmət mərkəzində kənd sakinləri ərzaq və sənaye malları mağazalarının, ət satışı dükanının, gözəllik salonunun və bərbərxananın xidmətindən yararlanacaqlar.

Naxçıvan Muxtar Respublikası Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin Şərur Rayon İdarəsinin inşaatçıları obyektlərin tikintisini vaxtında başa çatdırmaq üçün səy və bacarıqlarını əsirgəmirlər. Kənddəki məscidin inşası da həmin idarənin kollektivinə həvalə olunub.

Rayon Yol Təmir-Tikinti İdarəsinin kollektivi isə Şərur şəhərindən Kürkəndə uzanan avtomobil yolunun yenidən qurulması işlərini başa çatdırıb.

* * *

Bu ilin may ayından Şərur şəhərinin Nəriman Nərimanov küçəsindəki 7 nömrəli, 18 mənzilli yaşayış binasının əsaslı şəkildə yenidən qurulmasına başlanılıb. Yeni quruculuq tədbirini Naxçıvan Muxtar Respublikası Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin Şərur Rayon İdarəsi həyata keçirir.

İkimərtəbəli yaşayış binasında əvvəlcə taxta arakəsmələr, döşəmə, tavan və dam örtüyü sökülüb, sonra betonlama və hörgü işlərinə başlanılıb, təzə dam örtüyü vurulub, kommunikasiya xətləri çəkilib. Daxildə və fasad hissədə suvaq işləri tamamlanıb. Eyni zamanda otaqların döşəməsinin vurulması, dəhlizlərə və pillələrə travertin üzlük döşənməsi başa çatıb. Hazırda həyətdə abadlıq işləri aparılır, piyadalar üçün səkilər salınır.

İş icraçısı Fərrux İbrahimovun dediyinə görə, yaşayış binasının əvvəlki quruluşundan fərqli olaraq, yenidənqurma işləri zamanı bina sakinlərinin normal yaşayış şəraitini təmin etmək məqsədilə əlavə otaqlar ayrılıb ki, bunlar da binadakı hər mənzil üçün ayrıca mətbəx, hamam və digər sanitariya yerlərinin olmasına imkan verəcəkdir. Bundan başqa, ətrafdakı boş sahələr hesabına binanın həyətinin genişləndirilməsi işlərinə də başlanılıb.

Şərur şəhərinin Heydər Əliyev prospektindəki 50 nömrəli, 24 mənzilli yaşayış binasında da yenidənqurma işləri aparılır. İnşaatçılar hər iki obyekti vaxtında istifadəyə verilməsi üçün səylə çalışırlar.

Cəfər ƏLİYEV

## Kənd təsərrüfatı üçün kreditlərin verilməsi payız aylarında da davam etdiriləcəkdir

*Müasir bazar iqtisadiyyatı şəraitində muxtar respublikada bankların verdiyi kreditlər nəticəsində iqtisadiyyatın ayrı-ayrı sahələrinin maliyyələşdirilməsi məhz bank sektorunun iqtisadiyyatın inkişafında rolunun əsas göstəricisidir. Banklarımız tərəfindən muxtar respublika sakinlərinin əlverişli maliyyə resursları ilə təmin edilməsi müxtəlif istehsal və xidmət sahələrinin yaradılmasına, onların inkişafına, bu sahələrdə fəaliyyətin genişləndirilməsinə, əhali tələbatlarının yerli istehsal hesabına ödənilməsinə istiqamətlənmiş prioritet məsələdir.*

Muxtar respublikada fəaliyyət göstərən banklar və bank olmayan digər kredit təşkilatları tərəfindən iqtisadiyyatın ayrı-ayrı sahələrinə verilən kreditlər həmin sahələrdə məhsulların istehsalının artmasına, istehsal olunmuş məhsulların ixracına, məşğulluğun artırılmasına, ümumilikdə, muxtar respublika iqtisadiyyatının bütün sahələrinin inkişafına birbaşa və dolayı yolla təsir edir.

Qeyd etdiyimiz kimi, muxtar respublikada kreditləşmə iqtisadiyyatın müxtəlif sahələri üzrə aparılır. Bu proses 2014-cü ilin ilk 8 ayında da banklar və bank olmayan kredit təşkilatları tərəfindən uğurla həyata keçirilmişdir. Ümumilikdə, 2014-cü ilin yanvar-avqust ayları ərzində muxtar respublika iqtisadiyyatının inkişafı üçün verilmiş kreditlər 37 milyon 17 min manat təşkil etmişdir. Bu, ötən ilin müvafiq dövrü ilə müqayisədə 7 milyon 736 min manat artım deməkdir. Verilmiş kreditlər sənaye, tikinti, ticarət, nəqliyyat, daşınmaz əmlakla əlaqədar ipoteka krediti, digər kommunal, sosial və şəxsi xidmətlərin göstərilməsi üçün istehlak və kənd təsərrüfatı kreditlərini əhatə edir. Bu sahələr içərisində muxtar respublika iqtisadiyyatının aparıcı sahələrindən hesab olunan kənd təsərrüfatı mühüm yerlərdən birini tutur. Belə ki, kənd təsərrüfatı ilə məşğul olan əhaliyə, fermerlərə, sahibkarlara bu müddət ərzində verilən kreditlərin həcmi 11 milyon 657 min manat təşkil etmişdir. Bu isə ötən ilin müvafiq dövrü ilə müqayisədə 3 milyon 9 min manat çoxdur. O cümlədən kənd təsərrüfatının da ayrı-ayrı sahələri üzrə verilən kreditlərin həcmində artım tempi müşahidə olunmaqdadır. Belə ki, bostan-tərəvəz bitkilərinin yetişdirilməsi məqsədilə verilən kreditlər ötən illə müqayisədə 857 min manat artımla 1 milyon 139 min manat təşkil etmişdir. Heyvandarlığın inkişafı üçün ayrılan kreditlərin həcmi 7 milyon 940 min manat olmuşdur ki, bu da ötən ilin müvafiq dövrü ilə müqayisədə 4 milyon 159 min manat artım deməkdir. İstixana təsərrüfatının yaradılması və inkişafı məqsədilə banklar və bank olmayan kredit təşkilatları tərəfindən 535 min manat kredit verilmiş, bu sahədə də ötən ilin müvafiq dövrü ilə müqayisədə 504 min manat artım olmuşdur. Cəlb edilən maliyyə resurslarının artım tempi ilə müşahidə olunan sahələrdən biri də arıçılıqdır. Belə ki, bu sahənin inkişafına istiqamətləndirilmiş kreditlərin həcmi 400 min manat olmuş, ötən ilin müvafiq dövrü ilə müqayisədə 257 min manat artım müşahidə edilmişdir.

Bütün bunlarla yanaşı, qarşıdan gələn payız mövsümü və payızlıq əkinlərin həyata keçirilməsi ilə bağlı əhalinin maliyyə resurslarına yarana biləcək tələbatlarının ödənilməsi üçün muxtar respublikada fəaliyyət göstərən bank və bank olmayan kredit təşkilatları bu istiqamətdə hazırlıqlarını davam etdirirlər. Payızlıq taxıl əkini kreditləşməsində sahibkarlara güzəştli kreditlərin verilməsi də davam etdiriləcəkdir.

Etibarlı ərzaq təminatı hər bir ölkənin iqtisadi sabitliyinin və sosial dayanıqlılığının başlıca şərtidir. Bu baxımdan ölkə əhalisinin ərzaq təhlükəsizliyinin təminatında əsas strateji sahə olan kənd təsərrüfatının inkişafı daim diqqət mərkəzindədir. Aqrar sahədə güzəştli kreditləşdirmə imkanlarının genişlənməsi öz müsbət nəticələrini göstərməkdədir. Bütün bunlar aqrar sektorda istehsal həcmini artırmaqla yanaşı, bu sahədə yüksək məhsuldarlığa və səmərəliliyə, qabaqcıl texnologiyaların tətbiqinə, emal müəssisələri şəbəkəsinin genişləndirilməsinə, ən əsası isə yerli məhsulların rəqabət qabiliyyətinin artırılmasına gətirib çıxarır. Aqrar sahədə sahibkarlığın inkişafı kəndlərdə orta təbəqənin formalaşması prosesinə də təkan verir.

Elçin ƏLİYEV
*Mərkəzi Bankın Naxçıvan Muxtar Respublikası İdarəsinin aparıcı mütəxəssisi*

## Naxçıvanda növbəti açıq ürək əməliyyatları aparılır

Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin birgə razılaşdırılmış tədbirlər planına uyğun olaraq, muxtar respublikanın 90 illiyi münasibətilə tədbirlər davam etdirilir. Artıq yubiley çərçivəsində bir sıra işlər görülmüş, humanitar aksiyalar təşkil olunmuşdur. Birgə səylər, nəticə etibarilə, əhalinin sağlamlığının qorunmasına böyük fayda verir. Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin yüksəkixtisaslı həkim briqadalarının hər il olduğu kimi, "Muxtariyyət ili"ndə də muxtar respublikamıza gəlməsi aztəminatlı ailələrdən olan xəstələrin müayinə və müalicəsi işinin daha da yaxşılaşmasına şərait yaradır. Azərbaycan Respublikası Səhiyyə Nazirliyi Mərkəzi Neftçilər Xəstəxanasının Ürək-Damar Xəstəlikləri Mərkəzinin həkim briqadası təkcə bu ilin ilk 6 ayı ərzində 3 dəfə Naxçıvan Diaqnostika-Müalicə Mərkəzində olmuş, 80 nəfərdə EXO müayinə, 51 nəfərdə angioqrafiya, 35 nəfərdə açıq ürək, 1 nəfərdə periferik damar əməliyyatları aparmışdır.

Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin təşkilatçılığı ilə Mərkəzi Neftçilər Xəstəxanası Ürək-Damar Xəstəlikləri Mərkəzinin yüksəkixtisaslı heyəti sentyabrın 7-də yenidən, bu il dördüncü dəfə olaraq, Naxçıvana gəlmişdir. Ürək-Damar Xəstəlikləri Mərkəzinin ürək və damar cərrahları Seymur Musayevin, Kənan Əsədovun, Kamal Ağarzayevin, anestezioloqların, əməliyyat, reanimasiya, palata tibb bacılarının təmsil olunduğu heyət son 2 gün ərzində Naxçıvan Diaqnostika-Müalicə Mərkəzində əvvəlcədən qeydiyyata götürülmüş 9 kardioloji xəstədə aortakoronar şuntlama, açıq ürək əməliyyatları aparmış və risk faktorlu xəstələri müxtəlif kardioloji müayinələrdən keçirmişdir. Xəstə Zəhra Dadaşovanın əməliyyatı zamanı aortik bioprotez qapaq qoyulmuş və eyni zamanda aortakoronar şuntlama əməliyyatı icra olunmuşdur. Digər xəstələr üzərində də aparılan açıq ürək əməliyyatları uğurla başa çatdırılmış, 1 xəstəyə isə aortal qapaq qoyulmuşdur. Kardioloji ambulator müayinə və müalicələr zamanı xəstələrə tibbi məsləhət və tövsiyələr verilmişdir.

Həkim briqadası açıq ürək əməliyyatları ilə yanaşı, xəstələrdə müşahidə olunan gizli ürək xəstəlikləri və onların risk amillərini də araşdırmışdır.

Cərrahi əməliyyatlarda Naxçıvan Diaqnostika-Müalicə Mərkəzinin kardiovaskulyar-cərrahı İntiqam Fətullayev, reanimasiya, anestezioloji tibb bacıları da iştirak edirlər.

*Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin mətbuat xidməti*



# İqtisadiyyat





## Muxtar respublikada sənayeləşmənin yeni mərhələsi

*Muxtariyyət illərində Naxçıvan Muxtar Respublikasının sənayesi Azərbaycan iqtisadiyyatında aparıcı yerlərdən birini tutmuş, XX əsrin ortalarından başlayaraq daha intensiv inkişaf yoluna qədəm qoymuş, ümummilli lider Heydər Əliyevin 1969-cu ildə Azərbaycana rəhbər seçilməsindən sonra yeni vüsət almışdır. 1970-85-ci illərdə iqtisadiyyatın bütün sahələrinin inkişafı üçün Naxçıvan Muxtar Respublikasına 900 milyon manat sərmayə qoyularaq Alt Trikotaj Fabriki, yeni Mineral Sudoldurma Zavodu, Şüşə Qablar Zavodu, Taxıl Məhsulları Kombinatı, Naxçıvan İri Evtikmə Kombinatı və Dəmir-Beton Məmulatları Zavodu, Şahtaxtı Daş Karxanası, bütövlükdə, 22 sənaye müəssisəsi, qonşu İran İslam Respublikası ilə birgə Araz çayı üzərində su anbarı və elektrik stansiyası tikilib istifadəyə verilmişdir.*

Azərbaycanın Dağlıq Qarabağ ərazisinə Ermənistanın ərazi iddiası və bununla bağlı başlanan müharibə, SSRİ-nin dağılması nəticəsində iqtisadi əlaqələrin pozulması və digər amillər nəticəsində 1990-cı illərin əvvəllərində Naxçıvan Muxtar Respublikasının iqtisadiyyatı, xüsusilə sənayesi ağır vəziyyətə düşdü. 1993-cü ildə ümummilli liderimiz Heydər Əliyevin ölkəmizdə yenidən siyasi hakimiyyətə qayıdışı ilə bütün sahələrdə olduğu kimi, muxtar respublikanın sənayesində də əsaslı islahatlar aparılmış və bunun nəticəsində sənaye məhsulu istehsal edən dövlət və qeyri-dövlət bölmələrində yaradılmış müəssisələr hesabına ümumi sənaye məhsulunun həcmində hər il dinamik artım olmuşdur. Daha sonra ölkə Prezidenti cənab İlham Əliyev tərəfindən regionların iqtisadiyyatının gücləndirilməsi istiqamətində həyata keçirilən tədbirlər nəticəsində iqtisadiyyatın ayrı-ayrı sahələrinin inkişafına, istehsal müəssisələrinin fəaliyyətinin genişləndirilməsinə, yerli sahibkarlığın inkişafı ilə əhalinin həyat səviyyəsinin daha da yaxşılaşdırılmasına nail olunmuşdur.

1995-ci il sentyabrın 29-da "1995-1998-ci illərdə Azərbaycan Respublikasında dövlət mülkiyyətinin özəlləşdirilməsinin Dövlət Proqramı"nın qəbul edilməsi Azərbaycanda aparılan iqtisadi islahatların ən mühüm istiqamətlərindən biri olmaqla muxtar respublika iqtisadiyyatına öz müsbət təsirini göstərmişdir. 1995-2001-ci illərdə aparılmış məqsədyönlü tədbirlər nəticəsində muxtar respublika iqtisadiyyatında yaranmış durğunluq tamamilə aradan qaldırılmış, 2001-ci ildə sənayenin ümumi məhsulunun həcmi 1995-ci illə müqayisədə 1,7 dəfə artmışdır. Muxtar respublikanın blokada şəraitində olmasına, xammalın və materialın daşınması sahəsində çətinliklərə baxmayaraq, Alt Trikotaj, Tikiş və Mebel fabriklərinin, Emal müəssisələrinin, Elektrotexnika Zavodunun fəaliyyəti bərpa edilmiş, Badamlı-Vayxır-Naxçıvan mineral su kəmərinin çəkilməsi ilə mineral su istehsalı artmışdır. Şüşə Qablar Zavodunda energetika sənayesi üçün keramik izolyatorların, Dəmir-Beton Məmulatları Zavodunda beton elektrik dirəklərinin, yol kənarına döşəmək üçün beton plitələrin və digər məmulatların istehsalına başlanılmışdır. 1999-cu ildə Ordubad rayonunun Parağaçay və Ağdərə mədən yataqlarının kəşfiyyat və istismarı üzrə Böyük Britaniya şirkətləri ilə bağlanmış müqavilə Naxçıvan Muxtar Respublikasında mədən sənayesinin bərpasına təkan vermiş, tikinti materialları, dəmir-beton, kərpic, travertin, mərmər istehsalına başlanmış və nadir tikinti məhsullarının dünya bazarına çıxarılması təmin edilmişdir.

Sonrakı illərdə muxtar respublikada davamlı inkişafın təmin edilməsi, sahibkarlıq fəaliyyətinə meylin stimullaşdırılması və bu istiqamətdə bütün cəhdlərin hərtərəfli dəstəklənməsi sahəsində mühüm tədbirlər həyata keçirilmiş, bu sahədə məqsədli proqramlar hazırlanmışdır. "Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı Dövlət Proqramı (2004-2008-ci illər)"nın təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin Fərmanının icrasını təmin etmək məqsədilə Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2005-ci il 9 iyun tarixli Sərəncamı ilə "Naxçıvan Muxtar Respublikasının Regional İnkişaf Proqramı (2005-2008-ci illər)" təsdiq olunmuş və icrası uğurla reallaşdırılmışdır. Proqramın əsas məqsədi Naxçıvan Muxtar Respublikasında yerli təbii sərvətlərdən səmərəli istifadə etməklə kənd təsərrüfatı məhsullarının istehsalını artırmaq, emal sənayesinin, xidmət və digər infrastruktur obyektlərinin, turizmin inkişafını təmin etmək, məşğulluğun səviyyəsini yüksəltmək və əhalinin güzəranını daha da yaxşılaşdırmaqdan ibarət olmuşdur.

Ölkə Prezidenti cənab İlham Əliyevin həyata keçirdiyi islahatların davamı olaraq, muxtar respublikamızda da Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin müvafiq Fərmanı ilə təsdiq edilmiş "Naxçıvan Muxtar Respublikasının 2009-2013-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı"nın icrası nəticəsində ciddi iqtisadi uğurlara nail olunmuş, sürətli inkişaf üçün zəngin potensial formalaşmış, muxtar respublika iqtisadiyyatında həyata keçirilən tarazlaşdırılmış iqtisadi siyasət öz bəhrəsini vermişdir. Qəbul olunmuş iki böyük dövlət proqramının uğurla həyata keçirilməsi nəticəsində Naxçıvan Muxtar Respublikası əsaslı inkişaf yolu keçmiş, 2003-2013-cü illər ərzində muxtar respublikada Ümumi Daxili Məhsulun (ÜDM) həcmi 13,9 dəfə, adambaşına düşən Ümumi Daxili Məhsul 12 dəfə, sənaye məhsulları istehsalı 49 dəfə, kənd təsərrüfatı məhsulları istehsalı 4,7 dəfə, əsas kapitala investisiya qoyuluşu 16,4 dəfə, xarici ticarət dövriyyəsi 13,9 dəfə artmışdır.

Görülən məqsədyönlü tədbirlər nəticəsində aqrar region kimi tanınan muxtar respublikada sənaye ÜDM tərkibində ilk yerə sahib olmuş və onun məhsulunun həcmi kənd təsərrüfatı məhsulunun həcmini 2,6 dəfə üstələmişdir.

Muxtar respublikada gedən sənayeləşmə prosesi məşğulluq probleminin həllinə kömək etmiş, əhalinin sənaye məhsullarına olan tələbatı ödənilmiş, regionlararası və regiondaxili iqtisadi əlaqələr, o cümlədən xarici iqtisadi əlaqələr təkmilləşmiş və son nəticədə, əhalinin həyat səviyyəsi yüksəldilmişdir. Əgər 1991-ci ildə muxtar respublikada 46 sənaye müəssisəsi fəaliyyət göstərirdisə, yeni sənaye müəssisələrinin yaradılması istiqamətində görülən tədbirlər sayəsində təkcə 2013-cü ildə 124 layihə üzrə istehsal və xidmət sahələri istifadəyə verilmiş, iqtisadiyyatın müxtəlif sahələrində 46 layihə üzrə istehsal və xidmət müəssisələrinin qurulması davam etdirilmişdir.

Ümumilikdə, müstəqillik illəri ərzində sənaye sahəsi üzrə əldə olunmuş nailiyyətlərə nəzər salsaq, aydın olar ki, bu illər ərzində sənaye məhsulunun ümumi həcmi 217,9 dəfə, sənaye sahəsində işləyənlərin orta sayı 8,4 dəfə, sənaye sahəsində bir işçiyə hesablanmış orta aylıq əməkhaqqı 37,9 dəfə artmışdır.

Blokada şəraitinin məlum çətinliklərinə baxmayaraq, muxtar respublikanın yerli imkanlar hesabına sənaye potensialının artırılması müxtəlif tədbirlərin həyata keçirilməsi nəticəsində mümkün olmuş, sənaye məhsulu istehsalında köhnə infrastruktur yenilənmiş, əsas magistral yollar əsaslı şəkildə yenidən qurulmuş, biznes mühiti yaxşılaşdırılmışdır. Hazırda Naxçıvan Muxtar Respublikası sənaye məhsulu istehsalının artım tempinə görə, sənayenin ümumi məhsulunun tərkibində qeyri-dövlət sektorunun xüsusi çəkisinə və hazır məhsul qalığının minimum həddə olmasına görə Azərbaycan Respublikasının 10 iqtisadi rayonu arasında ilk yerdədir.

Naxçıvanda sənayenin bu cür yüksək sürətlə inkişaf etməsinə başlıca səbəb kimi muxtar respublikanın malik olduğu zəngin təbii ehtiyatları və dövlətin həyata keçirdiyi iqtisadi siyasəti göstərmək olar. Dövlətin iqtisadi siyasətinin əsas istiqamətləri isə yeni sənaye sahələrinin yaradılması ilə keyfiyyətli məhsul istehsal etmək, müasir texnologiyalardan istifadə və məhsul çeşidlərini yeniləməklə onun rəqabət qabiliyyətini artırmaq, həm daxili bazara, həm də xarici bazara inteqrasiyanı təşkil etməkdən ibarət olmuşdur. Aparılan iqtisadi siyasətin davam etdirilməsi və sənayenin modernləşməsi istiqamətində islahatların həyata keçirilməsi məqsədilə Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2013-cü il 6 iyun tarixli Fərmanı ilə "Sənaye parkları haqqında Əsasnamə" təsdiq olunmuşdur. Təsdiq edilmiş Əsasnamə sənaye parkının yaradılması üçün qanunvericilik bazası olub, onun idarə edilməsi və bu ərazidə sahibkarlıq fəaliyyətinin həyata keçirilməsi ilə bağlı məsələləri tənzimləyərək muxtar respublikada sənayeləşmənin yeni mərhələsinin başlanğıcını qoymuşdur.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2014-cü il 31 yanvar tarixli Sərəncamı ilə təsdiq edilmiş "2014-2015-ci illərdə Naxçıvan şəhərinin sosial-iqtisadi inkişafı üzrə Proqram"da kiçik və orta sahibkarlığın dəstəklənməsi zəminində bir sıra sənaye məhsullarının istehsalı sahələrinin yaradılması və bərpa olunması məsələləri nəzərdə tutulmuşdur. Muxtar respublikada 2014-cü ilin ilk yarımilində əvvəlki illə müqayisədə 1,5 faiz çox olmaqla, 471 milyon 580 min manat həcmində sənaye məhsulu istehsal olunmuşdur. Məhsul istehsalının artması ixracın həcminə təsir etmiş, tələbatdan artıq istehsal olunmuş 138 milyon 670 min Amerika Birləşmiş Ştatları dolları dəyərində sənaye məhsulu ixrac olunmuşdur. Bu müddət ərzində muxtar respublikada dövlət dəstəyi ilə 22 layihə üzrə istehsal və xidmət obyektləri istifadəyə verilmişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2014-cü il 1 sentyabr tarixli Fərmanı ilə təsdiq edilmiş "Naxçıvan Muxtar Respublikasının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı" sosial-iqtisadi inkişafın davamlılığını ortaya qoyur. Dövlət proqramında bütün sahələrdə olduğu kimi, sənayeləşmə siyasətinin həyata keçirilməsində də mühüm tədbirlərin reallaşdırılması nəzərdə tutulmuşdur.

*Nəticə etibarı ilə deyə bilərik ki, muxtar respublikanın sosial-iqtisadi inkişafının təməlində dövlətin sosialyönümlü iqtisadi siyasəti, o cümlədən hər bir vətəndaşın maddi rifahının yaxşılaşdırılması, iqtisadiyyatın dövlət tənzimləmə mexanizmlərinin liberallaşdırılması, azad rəqabət, sahibkarlıq və investisiya mühitinin daha da yaxşılaşdırılması, muxtar respublikanın iqtisadi təhlükəsizliyinin təminatı üçün aparılmış kompleks işlər dayanır. Bütün bunlar sənayenin perspektiv inkişafı üçün geniş yollar açır.*

**Mehriban İMANOVA**
*iqtisad üzrə fəlsəfə doktoru*

## "Badamlı" mineral suyunun ixracı artır

*"Mineral suların təbii muzeyi" adlandırılan Naxçıvan Muxtar Respublikasında 200-dən çox mineral su mənbəyi mövcuddur. Onlardan biri də Şahbuz rayonunun Badamlı qəsəbəsi ərazisində çağlayan eyniadlı mineral sudur ki, bu təbiət möcüzəsi bir çox xüsusiyyətləri ilə qiymətlidir. İlk növbədə, əvəzsiz süfrə suyu olan "Badamlı" həm də müalicəvi əhəmiyyətə malikdir. Belə ki, ateroskleroz, ürək, xərçəng, diabet, mədə yarası, bronxial-astma, pnevmoniya, brusellyoz xəstəlikləri, eyni zamanda immunitetin zəifləməsi, infeksiyalara yoluxma, müxtəlif orqanların, o cümlədən dərinin iltihabı zamanı müalicə məqsədilə istifadə edilir.*

Naxçıvan şəhərində 2,1 hektar ərazini əhatə edən və ümumi sahəsi 9590, istehsal sahəsi isə 3600 kvadratmetr olan yeni istehsal müəssisəsi ölkə başçısı cənab İlham Əliyevin 2009-cu ilin 3-4 avqust tarixlərində muxtar respublikaya səfəri zamanı istifadəyə verilmişdir. Burada ikimərtəbəli inzibati bina tikilmiş, yeməkxana, istehsal və digər yardımçı sexlər, anbar, karbon qazı və kompressor stansiyası yaradılmışdır. Müasir texnoloji avadanlıqlarla təchiz olunmuş zavod daxili bazarın tələbatına uyğun keyfiyyətli məhsul istehsal edərək rəqabətqabiliyyətli müəssisəyə çevrilmişdir.

Mineral suyun butulkalara doldurulması üçün istehsal sahəsində Fransanın "SİDEL" şirkətinin istehsalı olan avadanlıqlar quraşdırılmışdır. Müəssisənin sexlərində müxtəlifhəcmli plastik və şüşə butulkalarda olmaqla, 12 çeşiddə mineral su istehsal olunur.




Zavodda məhsulun keyfiyyətinə ciddi nəzarət olunur. Burada Almaniya istehsalı olan müasir avadanlıqlarla təmin edilmiş xüsusi laboratoriya qurulmuşdur. Laboratoriyada suyun minerallıq dərəcəsi, qələviliyi, ümumi analizləri yoxlanılır, keyfiyyətə zəmanət verilir. Bunun nəticəsidir ki, "Badamlı" mineral suyu keçirilən beynəlxalq sərgilərdə yüksək qiymətləndirilir. Zavodda tələbata uyğun olaraq 0,5, 1, 1,5 litrlik plastmas, 0,3, 0,6 litrlik şüşə butulkalarda qazlı və qazsız, 5 və 19 litrlik plastmas taralarda qazsız olmaqla, ümumilikdə, cari ilin ilk 7 ayında 2 milyon 258 min ədəd su istehsal edilmiş, 656 min ədədi muxtar respublika ərazisində, 1 milyon 535 min ədədi Bakı şəhərində və ölkəmizin müxtəlif bölgələrində satışa çıxarılmışdır. "Badamlı" mineral süfrə suyunun muxtar respublika ərazisində satışı "Gəmiqaya Bərəkət Bazarlama" Məhdud Məsuliyyətli Cəmiyyəti, Bakı şəhərində və ölkəmizin digər regionlarında isə "Gəmiqaya Holdinq" Şirkətlər İttifaqının Bakı Satış Mərkəzi vasitəsilə həyata keçirilir. İstehsal olunan məhsulun ticarət obyektlərinə vaxtında çatdırılması da diqqət mərkəzində saxlanılmış, müəssisəyə Almaniya istehsalı olan "Mercedes-Benz Axor" markalı yük avtomobilləri alınmışdır. Həmçinin Avropa ölkələrində və digər xarici ölkələrdə bu əvəzsiz təbii sərvətimizin satışını təmin etmək üçün möhkəm baza yaradılmışdır.

"Gəmiqaya Mineral Sular" Məhdud Məsuliyyətli Cəmiyyətində bütün istehsal prosesi İSO keyfiyyəti idarəetmə sistemi və qida təhlükəsizliyinin tələblərinə tam uyğun şəkildə təşkil edildiyi üçün müəssisə İSO-22000-2005 və İSO-9001-2008 sertifikatına uyğunluğu təsdiq olunaraq sertifikatlaşdırılmışdır. Bu da "Badamlı" mineral süfrə suyunun yüksəkkeyfiyyətli istehsalının göstəricisi və dünya bazarına girişinin təminatıdır. "Badamlı" mineral suyunun xarici ölkələrə ixrac olunması istiqamətində həyata keçirilən ardıcıl və məqsədyönlü tədbirlər öz bəhrəsini vermiş, "Gəmiqaya Mineral Sular" Məhdud Məsuliyyətli Cəmiyyəti "Biznesdə Uğur – 2013" mükafatının ilin ixracatçısı nominasiyası üzrə qalibi olmuşdur. Cari ilin ötən dövründə bağlanmış müqaviləyə əsasən, 67 min ədəd mineral suyun Rusiya Federasiyasına göndərilməsi təmin edilmişdir. Qeyd edək ki, "Gəmiqaya Mineral Sular" Məhdud Məsuliyyətli Cəmiyyətinin iqtisadi əlaqələri daha da genişləndirilmiş, cari ilin ilk 7 ayında istehsal edilən "Badamlı" mineral süfrə suyunun 26 faizi muxtar respublika ərazisində satışa çıxarılmış, 71 faizi Bakı şəhərinə və müxtəlif regionlara, 3 faizi isə Rusiya Federasiyasına ixrac olunmuşdur. Zavodda istehsal edilən məhsulun digər xarici ölkələrə ixrac olunması istiqamətində işlər davam etdirilir.

**Kərəm HƏSƏNOV**

Məhəmməd Tağı Sidqi – 160

# Məhəmməd Tağı Sidqi "Şərqi-Rus"da



***Azərbaycan maarifçiliyinin görkəmli nümayəndələrindən Məhəmməd Tağı Sidqi (1854-1903) pedaqoji fikir tariximizdə özünəməxsus yer tutur. Onun yaradıcılığında vətən, millət və dil anlayışları xüsusi əhəmiyyət kəsb edir. Qüdrətli pedaqoq, şair və publisist Naxçıvan maarifində elə bir xidmət göstərmişdir ki, yaratdığı xariqələrin əks-sədası hələ sağlığında bütün Qafqaza yayılmışdı. Maarif və mədəniyyət meydanına Ordubadda təşkil olunmuş "Əncüməni-şüəra" adlı şairlər məclisində atılan bu işıqlı Azərbaycan ziyalısı Naxçıvan şəhərində təşkil etdiyi "Məktəbi-tərbiyə"də fəaliyyətini davam etdirmiş, yazıb-yaratmışdır. Ustad sənətkar Cəlil Məmmədquluzadənin təkidli xahişi ilə Naxçıvan şəhər mühitinə daxil olan Sidqi burada teatr həyatının inkişafında da müstəsna xidmətlər göstərmişdir.***

Sovet dövründə böyük maarif xadiminin əsərlərindən az bir qismi öyrənilmiş və nəşr edilmişdir. Qeyd etmək lazımdır ki, Sidqinin ədəbi-pedaqoji irsi müstəqillik illərində daha geniş şəkildə öyrənilməyə başlanmışdır. 2004-cü ildə böyük pedaqoqun 150, 2014-cü ildə 160 illik yubileylərinin qeyd olunması haqqında Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin imzaladığı sərəncamlar bu sahədə mühüm bir addım olmuşdur. Belə ki, məhz göstərilən dövrdə Sidqinin ədəbi yaradıcılığı müstəqillik işığında dərindən öyrənilməyə başlanmış, bir sıra əsərləri ilk dəfə işıq üzü görmüşdür. Bu baxımdan müəllifin bir sıra məktublarının da elmi və ədəbi-ictimai dövriyyəyə daxil edilməsi təsadüfi deyildir. Sidqi vətən və millətin tərəqqisində ana dilinin inkişafına böyük önəm verirdi. Məktublarının birində böyük sevinc hissi ilə göstərirdi ki, mən türk dilində ilk "Coğrafiya" dərsliyi yazmışam və onun nəşrinə çalışıram. O deyirdi ki, milli dil, mədəniyyət və maarifin inkişafında teatr kimi, mətbuatın da mühüm rolu vardır. Ona görə də qəzet nəşr etdirmək təşəbbüsü ilə çıxış etmiş, ancaq bu məqsədinə nail ola bilməmişdir.

1880-ci illərin sonunda "Kəşkül" və "Ziya"nın nəşri dayandırıldıqdan sonra uzun müddət bütün Rusiya imperiyasında Azərbaycan türklərinin dilində bir dənə də olsun, mətbuat orqanı olmamışdır. Nəhayət, XX əsrin ilk illərində görkəmli naşir və publisist Məhəmməd ağa Şahtaxtlı böyük çətinliklər bahasına hökumət dairələrindən qəzet nəşrinə icazə ala bilmişdi. 1902-ci ildə o, artıq qəzetin nəşri üçün mətbəə avadanlıqlarını Avropadan Tiflisə gətirtmiş və mətbəə qurucuları ilə məşğul olmağa başlamışdır. M.Şahtaxtlı hələ XIX əsrin 90-cı illərində "Tiflis" qəzetini nəşr etdirmək fikrinə düşərkən ata mülkünü satmaq üçün Naxçıvana gəlmiş, bu işdə Sidqi ona yaxından köməklik göstərmişdir.

M.T.Sidqi Baxçasarayda nəşr olunan "Tərcüman", Kəlkəttədə nəşr olunan "Həblülmətin", Qahirədə nəşr olunan "Süreyya", Bakıda nəşr olunan "Kaspi" qəzetləri ilə yaxından əlaqə saxlamış, həmin mətbuat orqanlarında çıxış etmiş, əsl mənada, qəzetçi kimi tanınmışdır. Ana dilində "Şərqi-Rus" qəzetinin nəşri xəbəri böyük maarif xadimini ürəkdən sevindirmişdir. Qəzetin nəşrə başlamasından əvvəl M.Şahtaxtlı məktub yazaraq redaksiyada daimi işləmək üçün onu Tiflisə dəvət etmişdi. M.T.Sidqi qəzetin nə vaxt işıq üzü görəcəyini, bunun milli tərəqqi yolunda mühüm bir hadisə olacağını "Şərqi-Rus"un redaktoruna yazdığı məktubda belə vurğulayırdı: "Az müddətdən sonra "Şərqi-Rus" qəzeti millətin gənclərinin qaranlıq ürəklərində nur saçacaq və bilik və mərifət çırağı cəhalət çölündən səadət – xoşbəxtlik sarayına aparacaqdır. Sizin adınız da tarixdə əbədi olaraq həkk olunacaqdır".

M.T.Sidqi əziz dostunun Tiflisə qəzet redaksiyasında işləməyə dəvətini ailə vəziyyəti ilə əlaqədar qəbul edə bilməmiş, lakin Naxçıvanda qəzetin abunə işlərinə kömək etmiş, qəzetdə sanballı məqalələr dərc etdirmişdir.

Qeyd etmək lazımdır ki, M.Şahtaxtlının böyük zəhmət bahasına əsasını qoyduğu məşhur "Şərqi-Rus" qəzeti XX əsrin ilk anadilli mətbuat orqanı idi. 1903-cü il mart ayının 30-da qəzetin birinci nömrəsi işıq üzü görmüşdür. Bu qəzet o zaman mütərəqqi Azərbaycan ziyalılarının arzu etdiyi mühüm bir tribuna idi. Qəzetdə C.Məmmədquluzadə, M.Ə.Sabir, F.Köçərli, M.S.Ordubadi, Abdulla Sur kimi qabaqcıl ziyalılar çıxış edirdilər. M.T.Sidqi də həmin mətbuat orqanında məqalələrlə fəal iştirak edir, Avropa mühitindən gəlib Qafqaz mühitinə düşmüş bir naşirə qəzetin nəşri ilə bağlı kömək göstərir, faydalı məsləhətlər verirdi. Məsələ bundadır ki, qəzetin ilk nömrəsində başqa materiallarla yanaşı, xeyriyyəçi Hacı Zeynalabdın Tağıyev haqqında bir tənqidi yazı verilmişdi. Bu yazı böyük narazılığa səbəb olmuşdu. "Kaspi" qəzetinin əməkdaşları Əlimərdan bəy Topçubaşov və Əhməd bəy Ağaoğlu "Şərqi-Rus" əleyhinə geniş kampaniyaya başlamışdılar. M.T.Sidqi redaktorun bu hərəkətinin faktlar əsasında açıq səhv və zərərli olduğunu ona məhrəmanə şəkildə açıb göstərmişdir. O, bu münasibətlə Məhəmməd ağaya ünvanladığı məktubda qeyd etmişdir ki, Hacı Zeynalabdın Tağıyev nəinki Qafqazda, bütün Şərq aləmində, Şərq mətbuatında hörmətlə yad edilir, onun maarifə yardımları ağızdolusu tərif edilir. Tağıyevin tərəfdarı və xeyirxahı hər şəhərdə və küçədə vardır. Nə lazım olubdu ki, əvvəl mərhələdə o günə nüfuz və sərvət sahibi şəxslə bu məqama gəlmək?.. Yenə öz fəhmi-qəsiranəmcə, belə məsləhət görürəm ki, bir vasitə tapıb Tağıyev ilə sülh edəsiniz. Məgər inki yenə ruznamə vasitəsilə ola bilər. Bunu da demirəm ki, əvvəlcə yazdıqlarınızı təkzib edəsiniz. Bəlkə, bir növ ilə səhv və nisyanı, qüsur və nöqsanı məktəbə isnad edəsiniz.

"Şərqi-Rus" qəzetinin nəşrinin gec həyata keçirilməsi, elə birinci nömrədə yersiz bir məqalə nəşr olunması Sidqini narahat etmişdi. Bu fikirləri o, dostu Sultan Məcid Qənizadəyə yazdığı məktubda belə ifadə etmişdi: "Bir neçə vaxt da bu şadlıq ilə ümidvar və bu ümidvarlıq ilə şad ola-ola gözlədik. Gəlmədi, intizarını çəkdik, çıxmadı, nigaran olduq. Mətbuat aləminə qədəm qoymadı, ancaq-ancaq çıxdı. Axırda çıxdı nə çıxdı? Bir yekə mücəllitə, bir böyük iğtişaş".

Maarifçi ədibin "Şərqi-Rus" qəzetində nəşr olunan "Təəssüf, yenə də təəssüf" adlı məqaləsində də həmin mövzu davam etdirilmişdir. Bu məqalədə müəllif üç Azərbaycan mütəfəkkiri (M.Şahtaxtlı, Ə.Topçubaşov, Ə.Ağaoğlu) arasında baş vermiş münaqişəni pisləyirdi. Sidqi onların üçündən də xahiş edirdi ki, "millətin çar Rusiyasının əsarəti altında olduğu bir vaxtda bir-birlərinə qarşı cəbhə açmasınlar, əksinə, birləşib onun milli oyanışına və tərəqqisinə xidmət etsinlər". Yalnız millətini sevən insan bu sözləri yaza bilərdi: "Məni lənət və söyüşə layiq bilib nə qədər ki dilxahınızdır, söyün. Çünki mən dostların islahı və millətin səlahı üçün hər bir nifrin və narəva sözləri kəndi canıma nuş və guvara bilirəm. Mənim də qabaqca qəlbi nifrinim budur".

M.T.Sidqinin "Şərqi-Rus"da çap edilən ən sanballı məqalələrindən biri də "Qəzetə, yaxud qəzet nədir?" əsəridir. Xalqın maariflənməsi işində mətbuatın mühüm əhəmiyyət daşıdığını yaxşı başa düşən müəllif bu məqalədə yazırdı ki, bütün dünya qəzetin əhəmiyyətini və mahiyyətini dərk etdiyi halda, İran və Qafqaz müsəlmanlarının əksəriyyəti hələ də onu şeytan əməli sayır.

Görkəmli maarifpərvər ürəkağrısı ilə yazırdı ki, din alimlərinin nəzərində qəzet almaq və oxumaq küfrdür. Din alimlərinin təsiri altında da varlılar, tacirlər, əsnaflar, avamlar və başqaları da qəzet alıb oxumağı günah, yaxud ümumiyyətlə, müsəlmanları yoldan çıxarmaq kimi başa düşürlər.

Böyük təəssüf hissilə qeyd etməliyik ki, dövrünün açıqfikirli maarif fədaisi, görkəmli pedaqoq və publisist Məhəmməd Tağı Sidqi cəmi 49 il ömür sürmüşdür. Onun qəfil ölümünün səbəbləri də indiyədək açılmamışdır. Sidqinin qəflətən vəfat etməsi bütün maarif xadimlərini yasa boğduğu kimi, "Şərqi-Rus"un əməkdaşlarını da dərindən kədərləndirmişdir. Təsadüfi deyildir ki, burada Sidqinin ölümü ilə əlaqədar bir sıra yazılar, vida məqalələri çap olunmuşdur. Bunlar arasında Sidqinin "qardaşım" deyə müraciət etdiyi böyük satira ustası Cəlil Məmmədquluzadənin qəzetin 30 yanvar 1904-cü ildə çap olunmuş məqaləsi xüsusilə diqqəti cəlb edir. Müəllif "Getdi cahandan həzrəti-Sidqi" adlandırdığı bu məqaləsində böyük maarif fədaisinin Ordubadda, eləcə də Naxçıvan şəhərində təhsilin, yeni tədris üsulunun, üsuli-cədid məktəblərinin yayılması, xalq arasında qəbul edilməsi üçün göstərdiyi fədakarlıqları ürək yanğısı ilə təsvir edir: "Naxçıvan şəhərində haman məktəbi həzrəti-Sidqi təsis edən zaman belə qaydalı müsəlman mədrəsəsi nəinki İrəvanda, bəlkə, Qafqazın böyük müsəlman şəhərlərinin çoxunda yox idi. Həzrəti-Sidqinin getməyinə etdiyimiz ah-naləmizin əsl səbəbi budur".

Böyük ədib C.Məmmədquluzadə Sidqinin Ordubaddakı fəaliyyəti üzərində geniş şəkildə dayanır, onun Naxçıvan ziyalılarının israrlı dəvətini qəbul etməsindən bəhs edərək yazırdı: "Allah şahiddir ki, Sidqinin vətənimizə varid olmaqlığı şəhərimizin mədəniyyət və maarif tarixi üçün bir mühüm fəqərə oldu".

C.Məmmədquluzadənin ölçülüb-biçilərək yüksək sənətkarlıqla yazılmış və nəinki təkcə özünün, həm də Sidqini tanıyanların ürəklərinin dərinliyindən gələn sevgini və təəssüf hisslərini düşündürücü və yanğılı sözlərlə ifadə etdiyi bu məqalə ədəbiyyat tariximizdə dosta həsr olunmuş ən təsirli, ibrətli və yenitipli bir nekroloqdur.

Qeyd etmək lazımdır ki, o zaman Ordubadda yaşamış tarixi romanlar müəllifi M.S.Ordubadi də qiymətli dostunun, əqidə yoldaşının vəfatından çox kədərlənmişdir. "Şərqi-Rus"da nəşr etdirdiyi bir məqalədə qüdrətli ədib böyük təəssüf və kədər hissilə Sidqinin vəfatının ümumxalq matəminə çevrildiyini yazır:

***Çıxıbdır şəhərdən dişarə cəmaat***
***izdihamla,***
***Könül, bir ləhzə fikr et, gör nə***
***qeyrətli camaatdır.***
***Qılıb pişvaz nəşin xalq o dəm və***
***möhnəta guyan,***
***Görən söylərdi bilqət, yaqin,***
***ruzi-qiyamətdir.***

Sidqinin vəfatı münasibətilə yazılan və hələlik, geniş oxucu kütləsinə məlum olmayan bir məktub da elmi baxımdan mühüm əhəmiyyətə malikdir. 1904-cü ildə Q.Şərifov tərəfindən yazılmış həmin məktubda Sidqinin xatirəsini əziz tutmaq üçün bir neçə vacib məqama toxunulur. Əvvəla, Sidqinin "Şərqi-Rus" və "Tərcüman" qəzetlərində dərc olunan əsərlərinin toplanılıb çap etdirilməsinin zəruriliyi vurğulanır. Buradan aydın olur ki, Sidqinin əsərlərinin oxuculara çatdırılmasında "Şərqi-Rus"un özünəməxsus rolu olmuşdur. Onun əsərləri çapa hazırlanarkən bu qəzetdə çap olunan materiallardan hökmən istifadə olunmalıdır. İkincisi, Sidqinin atasız qalmış dörd oğlunun himayəyə götürülməsinin vacibliyi qeyd olunur. Nəhayət, bu işləri həyata keçirmək üçün Naxçıvanda "İanə dəftəri"nin açılması xəbəri verilir və həmin xeyirxah təşəbbüsə qoşulanların sayını artırmaqdan ötrü səy göstərilməsi xahiş edilir.

*Məhəmməd Tağı Sidqinin mənalı həyat yolu və ədəbi irsi, demək olar ki, onu tanıyan bütün müasirləri tərəfindən yüksək qiymətləndirilmiş, onun ədəbi və elmi irsi Azərbaycan ictimai fikrinin inkişafında mühüm rol oynamışdır.*

**Əbülfəz QULİYEV**
***AMEA-nın müxbir üzvü***

***Dağlıq rayon olan Şahbuzda insan yaşayışının neçə minillik tarixə malik olması "Kükü", "Sarıdərə", "Kolanı", "Ağbulaq", "Qarnıyarıq", "Govurqala", "Şamlar" adlı qədim yaşayış məskənlərində aparılan arxeoloji qazıntılar zamanı tapılan eksponatlar sübut edir. Qazıntılar zamanı adları çəkilən qədim yaşayış məskənlərində eramızdan əvvəl III-II minilliklərə aid edilən bir çox maddi-mədəniyyət nümunələri tapılıb. Həmin nümunələrin bir çoxunun mütəxəssislər tərəfindən***

# Muzeylərimiz tariximizin saxlanc yeridir

***boyalı qablar mədəniyyəti dövrünə məxsus olduğu müəyyənləşdirilib. Arxeoloqların fikrincə, bu yerlərdə insanlar Eneolit, Tunc və Dəmir dövrlərində məskunlaşıblar. Bu gün rayon Tarix-Diyarşünaslıq Muzeyində Kükü nekropolundan tapılmış iri boyalı küpə, boz rəngli qablar, tunc nizə ucluqları və sancaqlar qədim və orta əsrlərə aid bölmədə nümayiş etdirilir.***

Rayon ərazisindən tapılan maddi-mədəniyyət nümunələrinin təhlili bu ərazidə 4 min il bundan əvvəl yaşayış olduğunu sübut edir. Eramızdan əvvəl I minilliyə aid arxeoloji abidə hesab olunan Kolanı nekropolundan tapılan daş qutu qəbirlərinin içərisindən çəhrayı rəngli gil məmulatlarla yanaşı, tunc silah və bədii tərtibatda hazırlanmış qadın bəzək əşyaları – boyunbağı, üzük, sırğa və bilərziklər, quş fiqurları, obsidian lövhələr, ox ucluqları, balıqqulağından hazırlanmış muncuqlar aşkar olunub. Son Tunc və İlk Dəmir dövrlərinə aid edilən daş qutu qəbir üzərində çəkilmiş şəkil və işarələr qeydə alınıb. Həmin rəsm və işarələrin sənətkarlıq xüsusiyyətləri baxımından Gəmiqaya rəsmləri ilə eyniyyət təşkil etdiyi təsdiq olunub.

Batabat yaylağındakı qayalar üzərində çapılan 4 otaqdan ibarət Fərhad evi də rayonun qədim tarixindən xəbər verir. Rayon Tarix-Diyarşünaslıq Muzeyində Qızıl Qışlaq kəndi yaxınlığındakı Sarıdərə nekropolundan tapılmış tarixi əşyalar – boz rəngli gil qab qırıqları, çəhrayı rəngli əqiqdən hazırlanmış muncuqlar, dən daşları qorunub saxlanılır. Həmçinin arxeoloji qazıntılar zamanı Ağbulaq kəndi ərazisində aşkar olunan küp qəbirlərdən çıxmış tunc bəzək əşyaları, möhür və mis pullar da bu yerlərin bir vaxtlar insanların daha çox məskunlaşdığı yerlər olduğunun göstəricisidir.

Rayonun ərazisində tariximizin orta əsrlər dövrünə aid abidələr də çoxdur. Onlardan Quzey, Eyvaz, Yarnıx, Keçili, Kələkli, Məzrə, Xarabalıq yaşayış yerlərini misal göstərmək olar. Ayrınc, Batabat, Qanlı göl və digər ərazilərdən əldə olunmuş qiymətli tarixi yadigarlarımız bu gün də rayonun Tarix-Diyarşünaslıq Muzeyində qorunub saxlanılır və nümayiş etdirilir. Muzeyin ekspozisiyasında nümayiş etdirilən maddi-mədəniyyət nümunələri haqqında tədqiqatçı-arxeoloq alimlərdən Vəli Baxşəliyevin və Əziz Novruzlunun kitabında ətraflı məlumat verilib. Sevindirici haldır ki, arxeoloji qazıntılar nəticəsində əldə olunanlarla yanaşı, əhali tərəfindən əkin-biçin zamanı təsadüfən tapılan dəyərli maddi-mədəniyyət nümunələri də rayonun Tarix-Diyarşünaslıq Muzeyinə təqdim olunub. Bu gün həmin nümunələr muzeyin ekspozisiyasında tarixin yadigarları kimi qorunub saxlanılmaqdadır.

1982-ci ildən fəaliyyətə başlayan muzeydə indi 4 minə qədər eksponat nümayiş etdirilir. Müasir binada fəaliyyət göstərən muzeydə eksponatlar 6 bölmədə sərgilənir. Daş dövrünə aid eksponatlar arxeoloji axtarışlar nəticəsində əldə olunan maddi-mədəniyyət nümunələridir. Orta əsrlərə aid edilən eksponatlar müxtəlif tarixi dövrlərin mahiyyətinin açılmasında əvəzsiz rola malikdir. Bu eksponatlar arasında durna çırağı, gümüş kəmər, qədim silah nümunələri xüsusilə diqqətçəkicidir. Həmçinin rayonun ərazisində yaşayan və qədim el sənəti olan toxuculuqla məşğul insanların yaratdıqları qiymətli sənət nümunələrinin – xovsuz xalçaların, heybə və duzdanların üzərində ərəb əlifbası ilə yazılan bəzi sözlər xeyrin şər üzərində qələbəsinin tərənnümü kimi insan mənəviyyatının nəyə qadir olduğunu bir daha əks etdirir.

Tarixi mənbələrə əsasən, bu yerlərdə xalçaçılıq ən qədimlərdən insanların sevə-sevə yiyələndikləri sənət növlərindən olub. Qərinələrə yaşı olan xalça nümunələri bu gün muzeyin ekspozisiyasında yer alıb. Hazırda rayonun bir çox kəndlərində xalça toxuyan, çeşni salan, bənzərsiz naxışlar vuran və ilmələrlə gözəllik nümunələri yaradan insanlar hələ də bu sənəti yaşatmaqdadırlar.

Bu gündən gələcəyə yol gedən dünyamızda yaşayıb-yaradanların gələcək nəsillərə təqdimatı üçün də muzeydə müxtəlif bölmələr fəaliyyət göstərir. Yaşanan hər an tarixə çevrildiyi üçün o tarixi özündə yaşadan nə varsa, qorumalıyıq. Bu gün qurulan, yaradılan, tarixə çevrilən nəyimiz varsa, onda kimliyimizin əksini yaratmalıyıq.

Şahbuz bölgəsinin qədim oğuz-türk tayfalarına məxsusluğunu rayon mərkəzindəki Heydər Əliyev adına Mədəniyyət və İstirahət Parkındakı qoç fiqurları da təsdiq edir. Qədim sənət nümunələri olan həmin qoç fiqurları bizə daim keçmişimizi xatırladır və sanki uzaq tarixi bu çopurlaşmış daş fiqurlar özlərində əks etdirirlər.

Zəngin flora və faunası, məhsuldar torpağı, əsrarəngiz təbii gözəllikləri könülaçan Şahbuz rayonunda dağlardan axan göz yaşı kimi dumduru bulaqlar, mineral və müalicəvi sular süfrələrimizi bəzəyir, dərdlərimizə məlhəm olur. Belə əvəzsiz təbii sərvətə sahib olan Şahbuza uca dağlar, şiş qayalar keşik çəkir. Etibarlı istehkam rolunu oynayan o dağlarda, qayalarda hələ də qatı açılmayan tarixi sirlər, qədim əşyalar yatır, bəlkə də. Çünki oğuz-türk tayfalarının məskunlaşdığı ilkin ərazilərdən biri olan Şahbuz ərazisi həmin tarixi, oğuz-türk mədəniyyətini öz sinəsində ehtiva etməmiş deyil. O tarix ki, dünən də, bu gün də Azərbaycan xalqının mədəniyyətini, varlığını və onun sahib olduğu dəyərləri özündə yaşadır – tariximizi özündə yaşadan muzeylər kimi.

**Şəhla NƏBİYEVA**

*Muxtar respublikamızda bütün sahələrdə həyata keçirilən islahatlar Naxçıvanı yerləşdiyimiz regionda və ölkədə ən qabaqcıl standartların tətbiq olunduğu məkanlardan birinə çevirib. Digər sahələrdə olduğu kimi, informasiya texnologiyalarının idarəçilikdə tətbiqi sahəsində də ciddi addımlar atılıb. Naxçıvan Muxtar Respublikasında dövlət orqanlarının fəaliyyətində çevik idarəetmənin, şəffaflığın təmin olunması, informasiya-kommunikasiya texnologiyalarının dövlət orqanlarında geniş tətbiqi, müasir standartlara cavab verən internet saytlarının və elektron xidmətlərin yaradılması məqsədilə hələ 2011-ci ilin 15 iyulunda Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri tərəfindən Fərman imzalanıb. “Naxçıvan Muxtar Respublikasında dövlət orqanlarının elektron xidmətlər göstərməsinin təşkili haqqında” Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin Fərmanında mərkəzi icra hakimiyyəti orqanlarına elektron xidmətin təşkili məqsədilə bir sıra tədbirlərin həyata keçirilməsi tapşırılıb.*

*Jurnalist araşdırması*

# Bəzi dövlət qurumları elektron xidmətlərin yaradılmasını niyə gecikdirir?

## *Və ya Naxçıvan Muxtar Respublikası Daşınmaz Əmlakın Dövlət Reyestri Xidmətinin fəaliyyətində hamımızı düşündürən suallardan bəziləri...*




Fərmanın 1.5-ci bəndində göstərilən xidmətlərə görə nəzərdə tutulan rüsumların və digər ödənişlərin real vaxt rejimində elektron formada ödənilməsinin təmin edilməsi və elektron xidmət bölməsi vasitəsilə aparılan əməliyyatların, fərdi məlumatların təhlükəsizliyini təmin etmək məqsədilə zəruri texniki təhlükəsizlik tədbirlərinin görülməsi nəzərdə tutulub. Fərmana uyğun olaraq, 76 dövlət orqanı üçün internet səhifəsi hazırlanıb, onlara domen adları, elektron poçt ünvanları verilib və qlobal şəbəkədə yerləşdirilib. Həmçinin Naxçıvan Muxtar Respublikası Rabitə və İnformasiya Texnologiyaları Nazirliyi tərəfindən 34 dövlət orqanına elektron xidmətlərin göstərilməsi üçün reyestr kodları verilib, xidmətlərin reqlamentlərinin hazırlanmasına köməklik edilib.

Bir neçə ay bundan öncə ölkə mətbuatında aparılan bir jurnalist araşdırmasında Naxçıvanda “elektron hökumət” sahəsində görülən işlər ölkə səviyyəsində nümunə kimi göstərilib.

Naxçıvanın bu sahədə də öncüllüyünü qoruyub saxladığı hamıya məlumdur. Lakin müşahidələrimiz göstərir ki, vətəndaşlarla daha çox ünsiyyətdə olan bəzi qurumlar xidmətlərin və ödənişlərin elektronlaşdırılmasını ya həyata keçirə bilmirlər, ya da bunda maraqlı deyillər. Halbuki bu xidmətlər elektronlaşdırılsa, həm vətəndaşların rahatlığı, ödənişlərin şəffaflığı təmin olunar, həm də bu qurumların illik hesabat məruzələrində bu sahədə nöqsanların olması ilə bağlı faktlar təkrarlanmaz.

Naxçıvan Muxtar Respublikası Daşınmaz Əmlakın Dövlət Reyestri Xidməti vətəndaşların ən çox müraciət etdiyi dövlət qurumlarından biridir. Məlumat üçün qeyd edək ki, bu dövlət orqanı daşınmaz əmlakın dövlət reyestrinin tərtib edilməsini və aparılmasını təmin edən mərkəzi icra hakimiyyəti orqanı olmaqla, dövlət reyestrində daşınmaz əmlaka mülkiyyət və digər əşya hüquqlarının dövlət qeydiyyatının həyata keçirilməsini təmin edir.

Doğrudur, qurum elektron müraciətlərin cavablandırılması sahəsində işini qurmağa çalışsa da, elektron xidmətlərin göstərilməsi sahəsində hələ ki nəzərəçarpacaq bir addım müşahidə olunmur. Təəssüf ki, digər sahələr üçün nümunəvi sözünü deyə bildiyimiz halda, bu qurumun xidmətlərinin elektronlaşma səviyyəsi üçün bunu demək olmaz. Məsələn, ölkə üzrə Daşınmaz Əmlakın Dövlət Reyestrini həyata keçirən qurum – Azərbaycan Respublikası Əmlak Məsələləri Dövlət Komitəsinin yanında Daşınmaz Əmlakın Dövlət Reyestri Xidməti “elektron hökumət” portalında 15 interaktiv, 4 informativ xidmət təklif etdiyi halda, Naxçıvan Muxtar Respublikası Daşınmaz Əmlakın Dövlət Reyestri Xidməti öz portalında cəmi, hələlik, 4 elektron xidmət təklif edir:

*1. Daşınmaz Əmlakın Dövlət Reyestrindən məlumatların verilməsi üçün müraciətin və sənədlərin qəbulu*

*2. Daşınmaz əmlak obyektləri barədə kadastr məlumatlarının hazırlanması və kadastr xidmətlərinin göstərilməsi üçün müraciətin və sənədlərin qəbulu*

*3. Daşınmaz əmlak obyektlərinə ünvanların verilməsi və ünvan reyestri məlumat bazasından arayışların, ünvan xəritələrindən çıxarışların, digər ünvan məlumatlarının verilməsi üçün müraciətin və sənədlərin qəbulu*

*4. Daşınmaz əmlaka dair çıxarışların verilməsi üçün müraciətlərin və müvafiq sənədlərin elektron və ya skan edilmiş formatda rəsmi qəbul edilməsi.*

Araşdırma apardığımız dövrdə bizə qurumdan verilən arayışda göstərilir ki, Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin 30 aprel 2014-cü il tarixli qərarına əsasən, “Elektron xidmət növlərinin Siyahısı”nın təsdiq edilməsi haqqında Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin 2011-ci il 24 noyabr tarixli qərarında edilən dəyişikliklərlə xidmət tərəfindən elektron xidmətlərin göstərilməsi siyahısına əlavələr edilərək onların sayı 12-dən 18-ə çatdırılıb. Fakt faktlığında qalır ki, hələlik, “elektron hökumət” portalında 4 elektron xidmət təklif edilir və bu, sadəcə, təklif səviyyəsində qalmaqdadır. Başqa sözlə desək, buradan vətəndaşlara elektron xidmətin göstərilməsi, demək olar ki, mümkün deyil. Doğrudur, buradakı məlumatlarda ödənişlərin həyata keçirilməsi üçün Mərkəzi Bankın Naxçıvan Muxtar Respublikası İdarəsində açılmış müxbir hesab və kod öz əksini tapsa da, qurum elektron formada xidmət haqlarının və rüsumların ödənilməsi üçün heç bir xidmət təklif etmir. Halbuki bu gün elektron ödənişlərin, nağdsız hesablaşmaların genişləndirilməsi muxtar respublikada diqqət mərkəzində olan məsələlərdəndir. Çünki bu formalı ödənişlərin elektron formada həyata keçirilməsi bir sıra mənfi halların qarşısını dərhal alır. Məsələn, dövlət rüsumundan artıq ödəniş etməkdən şikayətlənən bəzi vətəndaşlarımız rüsumları birbaşa ödəyər. Yaxud da fərdi yaşayış evləri üçün hazırlanmış texniki pasportlarda torpaq sahəsinin ölçülərinin düzgün əks olunmaması, natura ilə sənədlərin fərqli olmasına çalışan bir sıra “ərköyün vətəndaşlarımız” bu niyyətlərini hər hansı formada həyata keçirə bilməzlər.

Naxçıvan Muxtar Respublikası Daşınmaz Əmlakın Dövlət Reyestri Xidmətinin İnformasiya texnologiyaları və məlumat bazası sektorundan deyirlər ki, bu xidmətlərin göstərilməsi üçün müvafiq işlər görülüb və xidmətlər barədə lazımi informasiyalar “elektron hökumət” portalı üçün təqdim olunub.

Xidmətdən bu istiqamətdə görülən işlərlə bağlı aldığımız məlumatda qeyd olunur ki, Daşınmaz Əmlakın Dövlət Reyestri Xidmətinin informasiya sistemlərinin və ehtiyatlarının, elektron xidmətlərin “elektron hökumət” portalına qoşulması və fəaliyyətinin təmin edilməsi üçün ehtiyac olan avadanlıqlar müəyyənləşdirilib. Mütəxəssislər tərəfindən daşınmaz əmlakın qeydiyyatı, kadastrı və idarə edilməsi sisteminin “elektron hökumət” portalında fəaliyyətini təmin etmək üçün xidmət tərəfindən iki ədəd yeni server alınıb. Serverlərdən biri məlumat bazasının saxlanması, digəri məlumat bazasına müdaxilə olunmadan kənardan qoşulmaq, elektron xidmətlərin göstərilməsi üçün nəzərdə tutulub.

Qeyd edək ki, xidmətlərin elektronlaşdırılması üçün digər mühüm faktor daşınmaz əmlakın məlumat bazasının yaradılması və Milli Qeydiyyat Sistemi proqramının hazırlanmasıdır. Qurumdan verilən məlumatda göstərilir ki, xidmət yarandığı andan daşınmaz əmlakın məlumat bazası yaradılıb və Milli Qeydiyyat Sistemi proqramı vasitəsilə, yəni avtomatlaşdırılmış şəkildə idarə olunması təşkil edilib.

*Arayışda öz əksini tapan məlumatlar kifayət qədər maraqlı, Naxçıvan Muxtar Respublikası Daşınmaz Əmlakın Dövlət Reyestri Xidmətində olduğumuz zaman elektron xidmətlərin həyata keçirilməsi üçün böyük çətinliklərin olduğu barədə bizə verilən izahatlar təəccübləndirici, digər nazirlik və dövlət qurumlarının üzərinə düşən vəzifəni yerinə yetirməli olduğu ilə bağlı iddialar özünümüdafiə xarakterlidir. Fakt isə faktlığında qalır ki, fərmandan 3 il ötməsinə baxmayaraq, hələ ki, vətəndaşlara elektron xidmətlərin göstərilməsi məsələsi öz həllini tapmayıb. Bu elektron xidmətlərin təşkil edilməməsinin günahkarı isə biz deyilik. Biz, sadəcə, vətəndaşı maraqlandıran məsələni araşdırmağa cəhd göstərən tərəfik. Ona görə də müraciətimizə “elektron xidmətlərin qurulması çətin işdir, gəl kömək et, quraq” kimi ifadə ilə deyil, əməli işlə cavab vermək lazım idi.*

**Elnur KƏLBİZADƏ**

# Təhsil müəssisələrində yangın təhlükəsizliyi ilə bağlı maarifləndirici tədbirlər həyata keçirilib

*Qarşıdan yeni tədris ili gəlir. Digər müəssisələrdə olduğu kimi, təhsil müəssisələrində və uşaq bağçalarında da yangına qarşı təhlükəsizlik tədbirlərinin həyata keçirilməsi və qabaqlayıcı tədbirlərin görülməsi Naxçıvan Muxtar Respublikası Fövqəladə Hallar Nazirliyinin diqqət mərkəzindədir. Hər il olduğu kimi, bu il də Naxçıvan Muxtar Respublikasının şəhər və rayonlarında yeni tədris ilinə hazırlıqla bağlı məktəblərə və uşaq bağçalarına baxışlar keçirilib, müəllim və texniki işçilərlə yangın təhlükəsizliyi qaydaları haqqında maarifləndirmə və məlumatlandırma işləri aparılıb.*

Fövqəladə Hallar Nazirliyi Dövlət Yangın Təhlükəsizliyi İdarəsinin əməkdaşları tərəfindən Naxçıvan şəhəri və rayonlarda yerləşən ümumtəhsil məktəblərinin, uşaq bağçalarının binalarına yangından mühafizə tədbirlərinin həyata keçirilməsi məqsədilə baxışlar keçirilib. Baxışlar zamanı binalarda mövcud olan yangınsöndürmə vasitələrinin, daxili yangın-su kranlarının və odsöndürücü balonların vəziyyəti yoxlanılıb, onların istifadə və tətbiqi qaydaları praktik olaraq təhkim olunmuş cavabdeh şəxslərə öyrədilərək izahat işləri aparılıb. Eləcə də görülən işlərin davamı olaraq, təhsil müəssisələrində və uşaq bağçalarında qış mövsümü dövründə qaz və elektrik təsərrüfatından düzgün istifadə olunması, xüsusən istilik sistemi olmayan və neft sobaları ilə qızdırılan məktəblərdə sobaların normativ tələblərə uyğun qurulması, sobaların müəyyən olunmuş ölçüdə metal altlıqlarla təmin olunması, tüstü borularının işlək vəziyyətdə saxlanması haqqında ətraflı məlumatlar verilərək izahat işləri aparılıb.

Hər bir müəssisədə olduğu kimi, təhsil müəssisələrində də yangın təhlükəsizliyi tədbirlərinin düzgün həyata keçirilməsi, qaz və elektrik təsərrüfatının mövcud olduğu sahələrdə texniki təhlükəsizlik və yangın təhlükəsizliyi qaydalarına əməl olunması qarşıda duran vəzifələrdən biridir. Bu sahələrlə yanaşı, həmçinin iş günü və dərslər qurtardıqdan sonra növbətçi işıqlandırma və qurğuları istisna olmaqla, bütün elektrik qurğu və cihazlarının dövriyyədən ayrılması, həmçinin mövcud yangınsöndürmə qurğularının və vasitələrinin daim istifadə üçün yararlı vəziyyətdə saxlanması ilə bağlı müəssisələrin işçi kollektivi ilə maarifləndirici söhbətlər aparılıb.

Qarşıdan payız-qış mövsümü gəlir. Məhz bu mövsüm ərzində təhsil müəssisələrində yangın təhlükəsizliyi tədbirlərinin həyata keçirilməsi və daim diqqət mərkəzində saxlanılmasını tövsiyə edirik. Hər bir müəssisədə olduğu kimi, təhsil müəssisələrində də payız-qış mövsümünə hazırlıqla bağlı bir sıra zəruri tədbirlər həyata keçirilməlidir. Belə ki, payız-qış mövsümü başlamazdan əvvəl bütün isitmə qurğuları, cihazlar diqqətlə yoxlanılmalı, zərurət olarsa, təmir edilməlidir. Nasaz soba və isitmə cihazlarının istismar olunmasına yol verilməməlidir. Qazanxanalarda qurğulara texniki xidmət göstərilməli və nasaz avadanlıqlar yenisi ilə əvəz edilməli, qazanxanaların yangın təhlükəsizliyi üçün zəruri tədbirlər görülməlidir.

Sobanın yandırılması üçün nəzərdə tutulmayan benzin, dizel yanacağından, digər asan alışan mayelərdən istifadə edilməsi, həmçinin yanacağın bilavasitə sobanın odluq hissəsinin qarşısında saxlanılması, yanar sobanın nəzarətsiz qoyulması qadağan olunur. Nasaz sobalardan və tüstü borularından istifadə etmək yangın təhlükəli olduğundan yolverilməzdir. Tüstü bacaları və boruları ayda iki dəfədən az olmayaraq təmizlənməlidir. Sobanın tüstü borusunun çardaqdan keçən hissəsi yanmayan materialla mühafizə edilməli və tüstü borusu binanın dam örtüyündən 70 sm hündürlükdə olmalıdır. Sobaların və tüstü borularının vaxtında təmizlənməməsi bir çox hallarda dəm qazından zəhərlənmə və yangının baş verməsi ilə nəticələnə bilər. Təhsil müəssisələrində yandırılan hər bir sobaya əmrlə cavabdeh şəxs təyin edilməli və yangına qarşı təlimatlandırılmalıdır.

**Yuxarıda qeyd olunanlarla bağlı təhsil müəssisələrində hər hansı bir yangın hadisəsi baş verərsə, dərhal şəhərdaxili və mobil operatorlar vasitəsi ilə Naxçıvan Muxtar Respublikasının Fövqəladə Hallar Nazirliyinin “112” qaynar telefon xəttinə və ya Dövlət Yangın Təhlükəsizliyi şöbələrinin “101” xidməti telefonlarına zəng etməyi unutmayın.**

**Mirtaleh SEYİDOV**
***Naxçıvan Muxtar Respublikası Fövqəladə Hallar Nazirliyinin bölmə rəisi***

## Ordubadda şahmat yarışı

Ordubad rayonunda “Zərərli vərdişlərə “yox” deyək, həmişə sağlam olaq” devizi altında yeniyetmələrin şahmat üzrə tempo turniri keçirilib. Ordubad Rayon Gənclər və İdman İdarəsi ilə rayon Şahmat Məktəbinin birgə təşkil etdiyi turnirdə 26 zəka sahibi mübarizə aparıb. Birincilikdə bütün rəqiblərini üstələyən Mətin Rzayev qalib adını qazanıb. Seyid Hüseyn ikinci, Elnar Məmmədov isə üçüncü olub.

Sonda təşkilatçılar tərəfindən qaliblərə diplom və medallar təqdim edilib.

**Ceyhun MƏMMƏDOV**

## *İtmişdir*

Naxçıvan şəhərinin Qaraçuq kəndində yaşamış Bayramova Elmira Məmməd qızının adına olan JN-1997A inventar nömrəli, 10304005 kodlu “Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə” itdiyindən etibarsız sayılır.

* * *

Əhmədova Aynurə Nəriman qızının adına Naxçıvan Regional Peşə Tədris Mərkəzi tərəfindən 08.02.2013-cü il tarixdə verilmiş 000938 nömrəli şəhadətnamə itdiyindən etibarsız sayılır.

* * *

Naxçıvan şəhəri, Babək məhəlləsi, bina 20, mənzil 8-də yaşayan Əliyeva Günəş Əvəz qızının adına olan 13668 inventar nömrəli texniki pasport və 12.08.2008-ci il tarixdə Naxçıvan Muxtar Respublikası Daşınmaz Əmlakın Dövlət Reyestri Xidməti tərəfindən verilmiş 0010226 seriya nömrəli çıxarış itdiyindən etibarsız sayılır.

## *Allah rəhmət eləsin*

Naxçıvan Dövlət Filarmoniyasının direktoru Elman Əliyev və filarmoniyanın kollektivi iş yoldaşları Əli İsmayılova, bacısı **ZƏRİFƏ XANIMIN** vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

A.Babayev adına Naxçıvan

Muxtar Respublika Uşaq Kitabxanasının direktoru Kamal Axundov və kitabxananın kollektivi iş yoldaşları Nəsibə, Günel və Şövkət Rzayevalara, əzizləri **ELŞADIN** vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

ŞƏRQ qapısı
Baş redaktor: TURAL SƏFƏROV

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, “Təbriz” küçəsi, 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Səbuhi Həsənov
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 4020. Sifariş № 765